

# ÜZEYİR HACIBƏYLİNİN EV-MUZEYİ

# UZEYIR HAJIBEYLI HOUSE-MUSEUM

# ДОМ-МУЗЕЙ УЗЕИРА ГАДЖИБЕЙЛИ

Qədim Bakının köhnə məhəllələrindən birində sadə, birmərtəbəli bir ev var. Buradan həmişə musiqi sədaları gəlir. Dahi Azərbaycan bəstəkarı, milli peşəkar Azərbaycan musiqisinin banisi, dünyaşöhrətli bəstəkar Üzeyir Hacıbəyliyə (1885–1948) məxsus olan bu ev indi xatirə muzeyi kimi fəaliyyət göstərir.

Nestled in one of the historic neighborhoods of ancient Baku stands a modest, one-story house from which music is always heard. This house once belonged to the great Azerbaijani composer, the founder of professional national Azerbaijani music, a world-renowned figure Uzeyir Hajibeyli (1885–1948). Today, it serves as a memorial museum.

В одном из старинных кварталов древнего Баку находится скромный одноэтажный дом. Отсюда всегда доносится музыка. Этот дом принадлежал выдающемуся азербайджанскому композитору, основоположнику профессиональной национальной музыки, всемирно известному Узеиру Гаджибейли (1885–1948). Сейчас здесь действует дом-музей композитора.





Bəstəkarın ilk ev-muzeyi hələ 1959-cu ildə onun Şuşada – uşaqlıq və gənclik illərini keçirdiyi evdə açılmışdı. Bakıdakı ev-muzeyi isə 1975-ci il noyabrın 20-də – onun 90 illik yubileyi günlərində Bakı şəhəri, Şamil Əzizbəyov küçəsi, ev 67 ünvanında açılmışdır.

The composer's first house-museum was opened in 1959 in Shusha, in the home where he spent his childhood and youth. The Baku house-museum was inaugurated on November 20, 1975, during the celebration of Hajibeyli's 90th anniversary, at 67 Shamil Azizbeyov Street.

Первый дом-музей У.Гаджибейли был открыт ещё в 1959 году – в Шуше, в доме, где он провёл детские и юношеские годы. Бакинский дом-музей начал свою работу позже – 20 ноября 1975 года, в дни празднования 90-летия со дня рождения композитора. Он располагается по адресу: город Баку, улица Шамиля Азизбекова, дом 67.





Muzey 4 otaqdan, həmçinin şüşəbənddən, kinozaldan və yaradıcılıq görüşləri otağından ibarətdir. Birinci otaq bəstəkarın iş və qonaq otağıdır. Bir çox musiqiçilər, xalqımızın görkəmli şəxsiyyətləri bu evdə Üzeyir bəyin qonağı olmuşlar. Bu otaqdakı ilk eksponat bəstəkarın Şuşada yaşadığı evin maketidir.



Музей состоит из четырёх комнат, застеклённой веранды (шюшебенда), кинозала и зала для творческих встреч. Первая комната совмещает в себе рабочий кабинет и гостиную композитора. Здесь бывали многие музыканты и видные деятели азербайджанской культуры. Один из первых экспонатов этой комнаты – макет дома Узеир бека в Шуше.



The museum comprises four rooms, a glass veranda, a cinema hall, and a space for creative gatherings. The first room served as the composer's study and guest room. Many prominent Azerbaijani musicians and public figures visited Uzeyir bey as his guests in this room. The first exhibit in the room is a model of the house in Shusha where the composer once lived.



Рояль марки «Bekker». К его клавишам прикасались пальцы самого Узеир бека.

На рояле лежит скрипка Узеир бека. Именно на этом инструменте он играл в составе оркестра во время премьеры первой оперы на всем Востоке – *«Лейли и Меджнун»* в 1908 году.



"Bekker" royalı. Onun klavişlərinə Üzeyir bəyin barmaqları toxunmuşdur.

Royalın üstündə Üzeyir bəyin skripkası qoyulub. O, 1908-ci ildə ilk Şərq operası "Leyli və Məcnun"un premyerasında orkestrin heyətində bu skripkada ifa etmişdir.

A highlight of the room is the "Becker" grand piano – its keys once touched by Uzeyir bey himself.

Resting atop the piano is his violin, which he played in the orchestra during the 1908 premiere of the first opera in the East, *Leyli and Majnun*.





Üzeyir bəyin yazı masasının üstündə yarımçıq qalmış "Azərbaycan" simfonik poemasının partiturası, tənbəki çubuğu, eynək, qol saatı, dəftərxana ləvazimatı saxlanılır.

On his writing desk are carefully preserved personal items: the unfinished score of the symphonic poem *Azerbaijan*, his tobacco pipe, glasses, wristwatch, and stationery.

На письменном столе композитора хранятся незавершённая партитура симфонической поэмы *«Азербайджан»*, табачная трубка, очки, наручные часы и письменные принадлежности.



Bəstəkarın surətinin həkk olunduğu xalça Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının bəstəkara 60 illik yubileyi münasibətilə təqdim etdiyi hədiyyədir.

A carpet featuring the composer's image, gifted by the National Academy of Sciences of Azerbaijan on his 60th anniversary, is also on display.

Ковёр с портретом композитора – подарок, преподнесённый ему по случаю 60-летия Президиумом Национальной академии наук Азербайджанской Республики.





Muzeyin ekspozisiya zallarında tanınmış rəssamlar Tahir Salahov, Mikayıl Abdullayev, Hüseyn Hacıyev, Yaşar Səmədov kimi rəssamların çəkdiyi Üzeyir Hacıbəyli portretləri və dahi bəstəkarın əsərlərinə çəkdikləri rəssamlıq nümunələri nümayiş olunur.

The museum's exhibition halls feature portraits of Uzeyir bey Hajibeyli by renowned artists such as Tahir Salahov, Mikayil Abdullayev, Huseyn Hajiyev, and Yashar Samadov, alongside artistic interpretations of the great composer's works.

В экспозиционных залах музея представлены портреты Узеира Гаджибейли, написанные выдающимися художниками – Таиром Салаховым, Микаилом Абдуллаевым, Гусейном Гаджиевым и Яшаром Самедовым, – и картины по произведениям композитора.

Muzeyin ekspozisiyasında nümayiş etdirilən ən maraqlı əsərlərdən biri də məşhur rus rəssamı Mixail Aleksiçin 1938-ci ildə çəkdiyi dostluq şarjıdır. Bu şarj Üzeyir bəyin həmin ildə Moskvada keçirilən Azərbaycan incəsənəti ongünlüyündə qazandığı müvəffəqiyyətlərdən sonra çəkilmişdir.



One of the most intriguing exhibits is a friendly caricature drawn in 1938 by the famous Russian artist Mikhail Aleksich, created in admiration of Hajibeyli's success at the Azerbaijani Art Decade in Moscow in the same year.

Одним из самых примечательных экспонатов является дружеский шарж, выполненный известным русским художником Михаилом Алексичем в 1938 году. Этот рисунок был создан после триумфального успеха Узеир бека на Декаде азербайджанского искусства в Москве.



İkinci otaq təmtəraq və bərbəzəkdən uzaq, sadə bir yataq otağıdır. Otağın divarlarında fotoşəkillər və rəsm əsərləri asılmışdır.

The second room is a simple, unadorned bedroom, free of luxury and decoration. Photographs and paintings hang on the walls.

Вторая комната – это скромно обставленная спальня, на стенах которой развешаны фотографии и картины.



Üçüncü otaq Üzeyir Hacıbəylinin həm bəstəkar, həm pedaqoq, həm də ictimai xadim kimi fəaliyyətini əks etdirir. Azərbaycanda ilk musiqi məktəbi, musiqi texnikumu, Azərbaycan Dövlət Konservatoriyası, simli kvartet, xalq çalğı alətlərinin "notlu" orkestri, Dövlət xoru, Simfonik orkestri, bəstəkarlıq məktəbi və s. kollektivlərin təşəkkülü Üzeyir bəyin adı ilə bağlıdır. Otağın divarlarında dahi bəstəkarın yaradıcılığının təməlini təşkil edən, Şərqin ilk professional operası "Leyli və Məcnun"a, eləcə də yaradıcılığının zirvəsi sayılan "Koroğlu" operasına xüsusi guşələr – ekspozisiyalar ayrılmışdır.


ПРОГРАММА
„Лейли и Меджнунъ"



The third room highlights Uzeyir Hajibeyli's multifaceted contributions as a composer, educator, and public figure. His name is associated with the founding of Azerbaijan's first music school, music college, State Conservatory, string quartet, notated folk instrument orchestra, State Choir, Symphony Orchestra, and the school of composition. Special sections are devoted to *Leyli and Majnun* – the cornerstone of Uzeyir bey's creative legacy – and *Koroglu*, the crowning masterpiece of his artistic career.





Третья комната отражает композиторскую, педагогическую и общественную деятельность Узеира Гаджибейли. С его именем связано создание в Азербайджане первой музыкальной школы, музыкального техникума, Азербайджанской государственной консерватории, струнного квартета, оркестра народных инструментов, исполнявшего по нотам, Государственного хора, симфонического оркестра, композиторской школы и других коллективов. На стенах этой комнаты оформлены отдельные экспозиции, посвящённые опере *«Лейли и Меджнун»*, положившей начало профессиональной опере на Востоке, и *«Кёроглу»* – вершине творческого наследия композитора.



Növbəti – dördüncü otağın divarlarında dahi bəstəkarın operettaları, xüsusilə "Arşın mal alan"ın dünya şöhrətindən xəbər verən proqram və afişalar asılıb. Üzeyir bəy "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" əsərləri ilə bütün Şərqdə operetta janrının əsasını qoymuşdur.

1913-cü il oktyabrın 25-də ilk dəfə tamaşaya qoyulan "Arşın mal alan" operettası dünyanın 67 dilinə tərcümə olunaraq 50-dən çox ölkədə, 120-yə yaxın teatrın səhnəsində oynanılmış, tez bir zamanda bütün Zaqafqaziyada, Rusiyanın bir çox şəhərlərində, eləcə də digər ölkələrdə böyük şöhrət qazanmışdır. Mixail Svetlovun 1917-ci ildə bu operetta əsasında çəkdiyi səssiz film Üzeyir bəyi qane etməmiş və onun tələbi ilə ekranlardan çıxarılmışdır. Ancaq Üzeyir bəyin icazəsi ilə operettanı erməni dilinə çevirib Gürcüstanda tamaşaya qoyan Sedrak Maqalyan sonralar ABŞ-də ondan gələn gəlirin hesabına özünə mehmanxana tikdirmiş və külli miqdarda qazanc əldə etmişdir. 1930-cu illərdə digər bir erməni Ruben Mamulyan bu operetta əsasında ABŞ-də çəkdirdiyi eyniadlı filmdə Üzeyir bəy Hacıbəyovun müəllif olduğunu göstərmir. 1942-ci ildə İrana gəlmiş bir qrup azərbaycanlı mədəniyyət xadimləri həmin filmə baxarkən bu haqsızlığın şahidi olurlar və əsl həqiqətləri müəllifə bildirirlər. 1945-ci ildə "Bakı" kinostudiyasında Stalinin göstərişi ilə film çəkilir və Üzeyir bəyin müəlliflik hüququ bərpa olunur. 1966-cı ildə rejissor Tofiq Tağızadə "Azərbaycanfilm" kinostudiyasında eyniadlı film çəkir.

Otaqdakı stendlərdən biri Üzeyir bəy Hacıbəyovun ədəbi-publisistik fəaliyyətini əks etdirir.




O, jurnalist kimi mətbuatda 64 təxəllüs altında savadsızlığı, nadanlığı tənqid etmişdir.

Stendin bir guşəsində dahi bəstəkarın 1925-ci ildə tədqiqata başlayıb, 1945-ci ildə yekunlaşdırdığı "Azərbaycan xalq musiqisinin əsasları" adlı fundamental elmi əsərinə və onun müxtəlif dillərdə nəşrlərinə xüsusi yer ayrılmışdır.



The fourth room showcases theatrical posters and programmes that reflect the global acclaim of his operettas, especially *Arshin Mal Alan*. With works like *Husband and Wife*, *If Not That, Then This* and *Arshin Mal Alan*, Uzeyir bey founded the operetta genre in the entire East.

First staged on 25 October 1913, *Arshin Mal Alan* was translated into 67 languages and performed in over 50 countries on nearly 120 stages. It quickly gained fame across the South Caucasus, in many Russian cities, and internationally. A silent film adaptation by Mikhail Svetlov in 1917 failed to meet Hajibeyli's expectations and was withdrawn from screens at his request.

However, with Uzeyir bey's permission, Armenian Sedrak Magalyan translated the operetta into Armenian and staged it in Georgia. With the profits from the performances of Uzeyir bey's operetta, Magalyan built a hotel in the U.S and amassed a fortune. In the 1930s, another Armenian, Ruben Mamulyan, produced a film in the U.S. based on the operetta but deliberately omitted Uzeyir bey Hajibeyli's name as the author, falsely claiming authorship. In 1942, a group of Azerbaijani cultural figures visiting Iran discovered Mamulyan's falsification while watching that film and informed the composer. In 1945, under Stalin's directive, a film was produced at the Baku Film Studio, which officially restored Hajibeyli's authorship. Later, in 1966, director Tofig Taghizade created a new film adaptation of the operetta at the Azerbaijanfilm studio.

One of the stands in this room highlights Hajibeyli's literary and journalistic legacy. Writing under 64 pseudonyms, he used journalism to criticize ignorance and illiteracy.

A special section of the stand is dedicated to his monumental scientific work, *The Principles of Azerbaijani Folk Music*, which he began researching in 1925 and completed in 1945. Various editions of this research book, published in multiple languages, are also on display in that section.



На стенах следующей, четвёртой комнаты размещены афиши и программы, свидетельствующие о мировом признании оперетт великого композитора, особенно *«Аршин мал алан»*. Узеир бек положил начало жанру музыкальной комедии на всём Востоке, создав бессмертные произведения, такие как *«Муж и жена»*, *«Не та, так эта»* и *«Аршин мал алан»*.

Оперетта «Аршин мал алан», впервые поставленная 25 октября 1913 года, была переведена на 67 языков мира и сыграна на сценах почти 120 театров более чем в 50 странах. В короткий срок она снискала известность в Закавказье, ряде городов России и за рубежом. Снятый Михаилом Светловым в 1917 году немой фильм по мотивам этой оперетты не пришелся по душе Узеир беку и по его настоянию был снят с экранов.

С разрешения композитора Седрак Магалян перевёл оперетту на армянский язык и поставил её в Грузии. Позднее, уже в США, он построил на вырученные от постановок средства собственную гостиницу и получил значительный доход.

В 1930-х годах другой армянин – Рубен Мамулян снял в США фильм с тем же названием, не указав авторство Узеира Гаджибейли. В 1942 году деятели азербайджанской культуры посмотрели этот фильм в Иране, обнаружив вопиющую несправедливость, и сообщили об этом Узеир беку. В 1945 году по указанию Иосифа Сталина на Бакинской киностудии был снят фильм, в котором были указаны авторские права Узеира Гаджибейли. В 1966 году на киностудии «Азербайджанфильм» режиссёр Тофик Тагизаде снял одноимённый фильм, ставший классикой азербайджанского кинематографа.

Один из стендов в экспозиции посвящён литературно-публицистической деятельности Узеира Гаджибейли. Он публиковал свои статьи под 64 псевдонимами, выступая с резкой критикой безграмотности и невежества.

Особое место на стенде отведено фундаментальному научному труду великого композитора – «Основы азербайджанской народной музыки».

Исследование, начатое Узеир беком в 1925 году и завершённое спустя двадцать лет – в 1945-м, было переведено на несколько языков.






Üzeyir bəy Hacıbəylinin bir bəstəkar, alim, publisist kimi gördüyü əvəzolunmaz işlər həm yurddaşlarının, həm də xaricdə yaşayan alim-tədqiqatçıların diqqətini özünə cəlb etmişdir. Qubad Qasımovun "Üzeyir Hacıbəyov", Mirabbas Aslanovun "Üzeyir Hacıbəyov – jurnalist", İzabella Abezqauzun "Üzeyir Hacıbəyovun "Koroğlu" operası", Şirin Səyyar Məlikovanın "Əfsanədən operaya", Sərdar Fərəcovun "Üzeyir işığında" kitabı və digər monoqrafiyaları buna misal göstərmək olar.

Uzeyir bey Hajibeyli's invaluable contributions as a composer, scholar, and publicist have drawn the attention of numerous local and international researchers. Notable works include Qubad Qasimov's *Uzeyir Hajibeyov,* Mirabbas Aslanov's *Uzeyir Hajibeyov – Journalist*, Izabella Abezgauz's *Uzeyir Hajibeyov's Opera "Koroglu"*, Shirin Sayyar Malikova's *From Legend to Opera*, and Sardar Farajov's *In the Light of Uzeyir.*






Многогранная деятельность Узеира Гаджибейли как композитора, учёного и публициста привлекала внимание не только соотечественников, но и зарубежных исследователей. Об этом свидетельствуют книги *«Узеир Гаджибеков»* Губада Гасымова, *«Узеир Гаджибеков – журналист»* Мираббаса Асланова, *«Опера «Кёроглу» Узеира Гаджибекова»* Изабеллы Абезгауз, *«От легенды к опере»* Ширин Сайяр Меликовой, *«В свете Узеира»* Сардара Фараджева и другие монографии.

Şüşəbənddə nəzərə çarpan eksponat Üzeyir Hacıbəylinin rəssam Oqtay Şıxəliyev tərəfindən mozaika üsulu ilə mərmər parçalardan hazırlanmış portretidir (1985-ci il).

Muzeyin kino zalında "O olmasın, bu olsun", "Arşın mal alan" bədii filmləri ilə yanaşı, bəstəkarın həyat və yaradıcılığından bəhs edən sənədli filmlər də nümayiş etdirilir.

Dahi bəstəkar, alim, publisist, dramaturq, pedaqoq, ictimai xadim Üzeyir Hacıbəylinin ev-muzeyində bu böyük şəxsiyyətin yaradıcılığının tədqiq və təbliğ olunması sahəsində mühüm və faydalı işlər görülür, elmi əsərlər yazılır, kitablar nəşrə hazırlanır.

Muzeyin əməkdaşları uşaq yaradıcılığı mərkəzlərində, musiqi məktəblərində, elm və mədəniyyət ocaqlarında, hərbi hissələrdə və respublikamızın rayonlarında konsert-mühazirələrlə çıxış edirlər.

İndi Xəzər, Qara və Aralıq dənizlərində üzən "Üzeyir Hacıbəyov" gəmisində ev-muzeyinin filialı fəaliyyət göstərir. Azərbaycanda və dünyada ümumilikdə 40-dan artıq obyektdə Üzeyir Hacıbəylinin adı əbədiləşdirilib.

A notable exhibit in the glass veranda is a mosaic portrait of Uzeyir Hajibeyli, crafted from marble pieces by artist Ogtay Shikhaliyev in 1985.

In the museum's cinema hall, visitors can watch feature films such as *If Not That, Then This* and *Arshin Mal Alan*, along with documentaries about the composer's life and creative legacy.

The house-museum of this great composer, scholar, publicist, playwright, educator, and public figure plays a vital role in preserving and promoting his legacy. It serves as a hub for research, the development of scholarly works, and the publication of books about the great composer.

Museum staff also perform concerts and give lectures at children's creativity centres, music schools, cultural and scientific institutions, military units and across various regions of the country.

Today, a branch of the house-museum operates aboard the ship *Uzeyir Hajibeyov*, which sails the Caspian, Black and Mediterranean Seas. In total, over 40 places and institutions in Azerbaijan and around the world honour the name of Uzeyir Hajibeyli.





В шюшебенде обращает на себя внимание выразительный экспонат – мозаичный портрет Узеира Гаджибейли, выполненный в 1985 году художником Октаем Шихалиевым из кусочков мрамора.

В кинозале музея демонстрируются художественные фильмы *«Не та, так эта»*, *«Аршин мал алан»* и документальные ленты, посвящённые жизни и творчеству выдающегося композитора.

В доме-музее великого композитора, учёного, публициста, драматурга, педагога и общественного деятеля Узеира Гаджибейли ведётся значимая и плодотворная работа по изучению и популяризации его творческого наследия. Здесь создаются научные труды, подготавливаются к изданию книги.

Сотрудники музея выступают с концерт-лекциями в центрах детского творчества, музыкальных школах, научных и культурных учреждениях, воинских частях и регионах нашей республики.

Филиал дома-музея действует на борту корабля «Узеир Гаджибейли», курсирующего по Каспийскому, Чёрному и Средиземному морям. Имя Узеира Гаджибейли увековечено более чем в сорока объектах как в Азербайджане, так и за его пределами.




Üzeyir Hacıbəylinin ev-muzeyi
Bakı-370009, Ş.Əzizbəyov küçəsi, 67/69

Дом-музей Узеира Гаджибейли
Баку-370009, ул. Ш.Азизбекова, 67/69

The House-Museum of Uzeyir Hajibeyli
Baku-370009, Sh.Azizbeyov str, 67/69

Tel: (012) 595 25 34, (012) 595 25 58